**Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin**
**3-23-1/3-1-1/2024 nömrəli**
**09 yanvar 2024-cü il tarixli**
**Əmri ilə təsdiq edilmişdir**

**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin**
**2024-cü il üzrə dövlət uzunmüddətli istiqrazlarının**

## 1. Buraxılış şərtləri

1.1 Emitent - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (hüquqi ünvan: Bakı şəhəri, Səməd Vurğun küçəsi, 135).

1.2 Dövlət uzunmüddətli istiqraz (bundan sonra - dövlət istiqrazları) – emitent tərəfindən buraxılan, tədavül müddəti 5 (beş) ildən artıq olan, emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və əsas məbləği ödənilən dövlət istiqrazı.

1.3 Dövlət istiqrazlarının növü - faizli, uzunmüddətli

1.4 Dövlət istiqrazlarının buraxılacağı təqvim ili - 2024-cü il

1.5 Dövlət istiqrazları buraxılışlarla yerləşdirilir və hər buraxılış çərçivəsində eyni hüquqları təsbit edirlər. İstiqraz mülkiyyətçisinin bir istiqrazla təsbit edilən hüquqları:

- İstiqrazın ödənilməsi zamanı istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərinə hesablanmış faizi müəyyən edilmiş qaydada və müddətdə almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

1.6 İstiqrazlar üzrə faiz gəliri və faiz gəlirinin ödənilməsi tarixləri hər buraxılış üzrə emitent tərəfindən müəyyən edilir. Bir istiqraz üzrə faiz gəlirinin məbləği manat ilə müəyyən edilir. Bir istiqraz üzrə toplanmış faiz gəliri aşağıdakı verilənlərin hasili yolu ilə hesablanır: istiqrazın nominal dəyəri, istiqraz üzrə illik gəlirlilik dərəcəsinin faizlə ifadəsi və istiqrazın yerləşdirilməsi tarixindən toplanmış faizlərin hesablandığı tarixədək ötən günlərin sayının şərti olaraq ili 365 gün götürülən günlərin sayına nisbəti. Toplanmış faizlərin məbləği tam qəpiyədək hesablanır. Bu zaman yuvarlaqlaşdırma riyazi yuvarlaqlaşdırma qaydasında aparılır.

1.7 Bir istiqrazın nominal dəyəri 100 (yüz) manat təşkil edir.

1.8 2024-cü ildə 10.000.000,0 (on milyon) ədəd istiqrazların emissiyası nəzərdə tutulur. İstiqrazların emissiyasının ümumi məbləği 1.000.000.000,0 (mir milyard) manat təşkil edir.

1.9 Ticarət iştirakçısı – Bakı Fond Birjasının (bundan sonra- BFB) üzvləri və Azərbaycan Respublikasının Mərkəzi Bankı. Dövlət istiqrazlarının yerləşdirilməsi üzrə maliyyə agenti kimi Azərbaycan Respublikasının Mərkəzi Bankı və ya anderrayter olaraq investisiya şirkəti çıxış edir.

1.10 Mərkəzi Depozitar - istiqrazların saxlanmasını və onlar üzrə hüquqların uçotunu aparan Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (bundan sonra - MDM) (AZ1141, Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tower).

1.11 Klirinq təşkilatı – MDM;

1.12 rəqabətli sifariş – alınacaq istiqrazların qiymətini və miqdarını özündə əks etdirən emitentə ünvanlanmış sifariş;

1.13 qeyri-rəqabətli sifariş – alınacaq istiqrazların məbləğini özündə əks etdirən emitentə ünvanlanmış sifariş;

1.14 Dövlət istiqrazları buraxılışlarla yerləşdirilir. Emitent hər bir buraxılışa beynəlxalq eyniləşdirmə kodunun əldə edilməsi və istiqraz buraxılışının uçota alınması məqsədi ilə Milli Nömrələyici Agentliklər Assosiasiyasının üzvü olan MDM-ə müraciət edir. MDM tərəfindən buraxılışa bir iş günü ərzində beynəlxalq eyniləşdirmə kodu verilir və bu barədə emitentə bildiriş təqdim olunur.

1.15 Buraxılışa beynəlxalq eyniləşdirmə kodunu aldıqdan sonra emitent dövlət istiqrazlarının hər buraxılışı üzrə istiqrazların beynəlxalq eyniləşdirmə kodunun nömrəsi, nominal dəyəri, sayı, məcmu nominal dəyəri, qeyri-rəqabətli sifarişlərin həcmi üzrə maksimal limit, özünün anderrayteri və ya maliyyə agenti haqqında tapşırığı hərraca ən geci iki iş günü qalmış BFB-yə təqdim edir.

1.16 BFB 1.15-ci bənddə göstərilən məlumatı aldıqdan sonra hərraca ən geci bir iş günü qalmış həmin məlumatı və hərracın keçirilməsi vaxtını və tarixini hərrac iştirakçılarına və internet səhifəsində açıqlayır.

## 2. İstiqrazların yerləşdirilməsi

2.1 İstiqrazlar kütləvi təklif üsulu ilə BFB-də yerləşdiriləcək. BFB-nin hüquqi ünvanı: Bakı şəhəri, AZ1095, Səbail rayonu, Bülbül pr., ev 19. BFB-nin faktiki ünvanı: Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tower. (21 iyul 2000-ci il tarixli, 5 nömrəli müddətsiz lisenziya).

2.2 İstiqrazların BFB-də yerləşdirilməsi onların listinqə qəbul edilməsindən sonra həyata keçirilir.

2.3 Dövlət istiqrazlarının buraxılışı hissə-hissə investorlara təklif oluna və yerləşdirilə bilər. İstiqrazların alqı-satqısı üzrə əqdlər BFB-nin ticarət sistemi vasitəsilə hərrac iştirakçıları tərəfindən istiqrazların alışı barədə verilmiş sifarişlərin icrası yolu ilə bağlanılır. BFB-nin üzvü

olmayan potensial alıcılar BFB-nin üzvü olan istənilən investisiya şirkəti ilə müvafiq müqavilə bağlayıb, onlara istiqrazların alışı barədə tapşırıq verə bilərlər.

2.4 Yerləşdirilmə üçün nəzərdə tutulan istiqraz buraxılışının tam həcmi emitent tərəfindən depozitarda deponentləşdirilməli, alınacaq istiqrazların ödənilməsinə yönəldiləcək pul vəsaiti isə hərrac iştirakçıları tərəfindən bu məqsədlər üçün MDM-in üzvü olan “Paşa Bank” ASC-də açılmış hesaba köçürülməlidir.

2.5 Hərrac günü sifarişlərin qəbul edilmə müddəti ərzində hərrac iştirakçıları öz adlarından və öz hesablarına və ya öz adlarından müştərilərinin hesablarına və onların tapşırıqları ilə rəqabətli və qeyri-rəqabətli sifarişləri təqdim edə bilərlər. Hər bir investorun hesabına verilmiş qeyri-rəqabətli sifarişlərin məbləği onun rəqabətli sifarişlərinin ümumi məbləğinin 20 (iyirmi) faizindən artıq ola bilməz.

2.6 Hərrac zamanı sifarişlər saat 10:00-dan 11:00-dək təqdim edilir. Sifarişlərin təqdim edilmə müddəti ərzində hərrac iştirakçısı sifarişinin şərtlərini dəyişdirə və ya sifarişi ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti başa çatdıqda sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir.

2.7 Emitent toplanmış sifarişlər haqqında məlumatı BFB-nin elektron ticarət sistemindən real vaxt rejimində əldə edir. Emitent həmin məlumat əsasında istiqrazların minimal qiymətini (bundan sonra - kəsmə qiymət) və hərrac zamanı yerinə yetiriləcək rəqabətli sifarişlərin ortaçəkili qiymətini müəyyən edir.

2.8 Emitent təmin ediləcək sifarişlər üzrə ortaçəkili qiyməti, kəsmə qiyməti və təmin olunacaq istiqrazların miqdarını müəyyən edərək, bu məlumatları hərracın keçirildiyi gün saat 16:00-dək özünün anderrayterinə və ya maliyyə agentinə təqdim edir və ona satış sifarişinin qoyulmasına dair tapşırıq verir.

2.9 Rəqabətli sifariş, sifarişdə qeyd olunan qiymət kəsmə qiymətindən az olmadıqda yerinə yetirilir. Qeyri-rəqabətli sifariş emitent tərəfindən ortaçəkili qiymətlə yerinə yetirilir.

2.10 Hərrac başa çatdıqdan sonra BFB tərəfindən hərrac iştirakçıları ilə istiqrazlar üzrə bağlanılmış əqdlər haqqında məlumat emitentə təqdim olunur.

2.11 Emitent istiqrazların hərrac zamanı yerləşdirilməmiş hissəsini yenidən satmaq hüququna malikdir.

## 3. İstiqrazların tədavülü və ödənilməsi

3.1 İstiqrazlar üzrə əqdlər, onların tədavül müddəti ərzində heç bir məhdudiyyət olmadan həyata keçirilə bilər.

3.2 İstiqrazların yerləşdirilməsinin başlanma tarixindən etibarən onların emitent tərəfindən geri çağırılmasına yol verilir. Emitent istiqrazlar üzrə faiz ödənişi günündə faiz gəlirləri ilə birgə istiqrazların nominal dəyərini ödəməklə istiqrazları geri çağıra bilər. Emitent geri çağıracağı

istiqrazlar barədə məlumatı MDM-ə və BFB-yə istiqrazların geri çağırlacağı gündən 10 iş günü öncədən təqdim edir. MDM və BFB emitent tərəfindən təqdim olunan məlumat əsasında geri çağırılacaq istiqrazların mülkiyyətçilərini istiqrazların geri çağırılması barədə istiqrazların geri çağırlacağı gündən 5 iş günü öncədən məlumatlandırır.

3.3 İstiqraz mülkiyyətçisi tərəfindən istiqrazların vaxtından əvvəl ödənilməsi üçün emitentə təqdim edilməsi yalnız emitentin razılığı ilə mümkün ola bilər.

3.4 İstiqrazların nominal dəyərinin və faiz gəlirlərinin ödənilməsi istiqraz mülkiyyətçilərinin siyahısı əsasında həyata keçirilir. Bu məqsədlə emitentin müraciəti əsasında istiqraz mülkiyyətçisi barədə məlumat MDM tərəfindən nominal dəyərin və faiz gəlirlərinin ödəniş tarixinə bir gün qalmış emitentə təqdim edilir və emitent ödəniş tarixində nominal dəyərin və faiz gəlirlərinin məbləğini MDM-in klirinq hesabına nağdsız formada köçürür. MDM isə öz növbəsində istiqrazlar üzrə emitent tərəfindən edilən ödənişləri müvafiq bank hesablarına nağdsız formada köçürür.

3.5 İstiqrazlar üzrə nominal dəyərin və faiz gəlirlərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcək. Belə yubanmaya görə faizlər və ya digər təzminatlar ödənilmir.

3.6 İstiqrazların yerləşdirilməsinə və ödənilməsinə dair məlumatlar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (www.maliyye.gov.az) və BFB-nin (www.bfb.az) internet səhifələrində yerləşdirilir.